Bakı Dövlət Universitetinin baş
müəllimi Əmirli İsrail Cəlal oğlu

**Dövlət adlarındakı məkan bildirən şəkilçilər**

İnsanların əldə etdikləri bilgilər içində dövlətlər yaratmağın xüsusi yeri oldu. Dövlət yaratmağın ən əsası səbəbi bundan ibarət oldu ki, insanlar daha təhlükəsiz şəkildə yaşamağa başladılar. Onlar dövlətlərinə müxtəlif adlar verdilər. Ancaq bu adlardakı şəkilçilər zamanla qonşu dövlətlər tərəfindən də istifadə olunmağa başlandı. Bu şəkilçilər içərisində “van,” “stan,” “iya”, “an” şəkilçiləri üstünlük təşkil etməyə başladı. Misal üçün “ “van” şəkilçisi ilə bitən dövlət adlarına erkən feodalizm və inkişaf etmiş feodalizm dövründə mövcud olmuş Ağvan, Şırvan, Tayvan kimi dövlətlərin adlarını qeyd etmək olar. Bu adlarda işlənən “van” şəkilçisi məkan bildirən şəkilçidir. Çox maraqlıdır ki, Ağvan dövlətinə daxil olan ərazilər də sonradan bu şəkilçi vasitəsilə adlandırılmışdır. Bunların sırasına Naxçıvan, İcevan, İrəvan, Mincevan, Sevan kimi əraziləri aid etmək olar. Azərbaycanda mövcud olmuş Şirvan dövlətinin də sonundakı “van” şəkilçisi şirlər məkanı kimi adlandırılmalıdır.

Digər bir şəkilçi olan “ stan” şəkilçisi həm qədimdə mövcud olan yer adlarının həm də müasir dövlətlərin sonluğunda işlənməkdədir. Qədim dövlətlərdən olan Sakastan, Sehistan kimi dövlətlərin adında bu şəkilçiyə rast gəlmək olar. Müasir dövlətlərdən isə SSR-dən ayrılmış əksər dövlətlərin sonluğunda stan şəkilçisi işlənməkdədir. Buraya Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, o cümlədən digər ölkələr Əfqanıstan, Pakistan, Hindistan və s dövlətləri göstərmək olar. Bu şəkilçi də məkan bildirən şəkilçidir və göstərilən xalqın bu regionda yaşamağını əks etdirir.

Başqa bir şəkilçi isə “iya”, şəkilçisidir. Erkən feodalizm dövründə və müasir dövrdə məkan bildirən şəkilçilər içərisində bu şəkilçinin də özünə məxsus yeri vardır. Bu şəkilçi ilə bitən söz sonluqlarına Rossiya,Serbiya, Almaniya, Albaniya, erkən feodalizm dövründə mövcud olmuş İberiya adlarını və s adları göstərmək olar.

An şəkilçisi ilə bitən an və  şəkilçilərinə isə İran, Sudan, Azərbaycan və s dövlətləri göstərmək olar.